# Şərəfli döyüş yolundan bəhs edən kitab

Əməkdar jurnalist Faiq Qismətoğlunun illərdir mətbuatda ölkəmizin ictimai-siyasi həyatında, xüsusən də boya-başa çatdığı Füzuli rayonunda, bütövlükdə Qarabağ bölgəsindən baş verən hadisələr haqqında qələmə aldığı bədii-publisistik yazıları oxucular tərəfindən maraqla qarşılanır. Onun vətənpərvərlik mövzusunda çoxlu hekayələri, portret oçerkləri, publisistik məqalələri var.
Faiq Qismətoğlu şəhid Elçin Süleymanovun döyüş yolundan bəhs edən məqaləsinin kitab variantını işləyərək "Dünyanın o üzü"nü (Bakı-2023, "Maarif" nəşr, 128 s.) II Qarabağ savaşı başlamasının üçüncü ildönümü ərəfəsində geniş oxucu auditoriyasına təqdim etmişdir. Kitabın ön söz əvəzi "Torpağa daman şəhid qanı..." tanıtmasında müəllif yazır: "...O qan elə-belə qan deyil. Əgər torpağa şəhid qanı damırsa, o torpaq başdan-başa Vətən olur, yurd olur, ocaq olur... Onlar bu döyüşlərdə öz qanları ilə yeni tarix yazdılar. Qanla yazılan tarixi isə zamanın heç bir seli, suyu, yağışı, zəlzələsi, tufanı, qasırğası silə bilməz!.."
Çox təbii, səmimi deyimdir. Ümumiyyətlə, jurnalistika yaradıcılığında səmimiyyət, obyektivlik Faiq Qismətoğlunun yazı tərzinin ana xəttini təşkil edir. Bu da illərin sınağında öz təsdiqini tapmış həqiqətdir ki, qeyri-səmimi publisistin qələmi uğurlu ola bilməz. Bu mənada "Dünyanın o üzü" rəvan dili ilə qəlbləri oxşayır...
Füzuli rayonunun igidləri də şanlı Azərbaycan Ordusunun sıralarında öz qanları ilə yurdumuzu, elimizi azad ediblər və möhtəşəm tarix yazıblar. Müəllifin dediyi kimi: "Böyük Bəhmənli Qarabağ uğrunda gedən döyüşlərdə 62 şəhid verib! 62 şəhid deyirəm, ha! 62 ucaboylu oğlan, 62 aslan biləkli igid, 62 palıda, çinara bənzər ər oğullar!" Onlardan biri də kitabda ömür və döyüş yolu haqqında genişliyi ilə söhbət açılan şəhid Elçin Süleymanovdur. O, İkinci Qarabağ savaşı başlayan andan - yəni 27 sentyabr 2020-ci ildən Füzuli və Cəbrayıl istiqamətində gedən ağır döyüş əməliyyatlarında erməni işğalçılarına qarşı mərdliklə vuruşub. Sentyabrın 30-da düşmən qüvvələri tərəfindən döyüş mövqeyinə atılan artilleriya mərmisi nəticəsində bir neçə döyüşçü yoldaşı ilə birgə Elçin Tehran oğlu Süleymanov şəhid olub.
Kitabda şəhidin barəsində müəllimlərinin, məktəb yoldaşlarının, kənd ziyalılarının, eləcə də doğmalarının söylədikləri insanın ürəyini silkələyir.
Ümidvarıq ki, nəfis tərtibatla hazırlanan "Dünyanın o üzü" oxucuların stolüstü kitabına çevrilməklə, gənclərin vətənpərvərlik ruhunda böyüməsində böyük rol oynayacaq.

Rəhman SALMANLI,
"Azərbaycan"